AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

RƏNA BƏYLƏR QIZI ƏSƏDOVA

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN ŞİMALİ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ (BAKI SƏNAYE RAYONU ISTISNA OLMAQLA)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2013**

**Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarixi» şöbəsində yerinə yetirilmişdir.**

| | |
|---|---|
| **Elmi rəhbər:** | |
| **tarix üzrə elmlər doktoru, professor** | **T.T.Vəliyev** |
| **Rəsmi opponentlər:** | |
| **tarix üzrə elmlər doktoru, professor** | **K.K.Şükürov** |
| **tarix üzrə fəlsəfə doktoru** | **A.Ş.Şahmuradov** |
| **Aparıcı təşkilat:** | **Bakı Dövlət Universitetinin “Azərbaycan tarixi (Humanitar fakültələr üzrə)” kafedrası** |

**Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdindəki tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.061 Dissertasiya Şurasının “19___” _06_____ 2013-cü il tarixli iclasında saat _____də olacaqdır.**

**Ünvan: Bakı-Az 1143, H.Cavid prospekti, 31.**

**Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi arxivində tanış olmaq olar.**

**Avtoreferat “____” ___________ 2013-cü ildə göndərilmişdir.**

| | |
|---|---|
| **Dissertasiya şurasının elmi katibi:** | |
| **tarix üzrə fəlsəfə doktoru** | **C.Ə.Bəhramov** |

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Birinci dünya müharibəsi bəşəriyyət tarixində o zamana qədər baş vermiş müharibələrin ən dəhşətlisi olub, ölkələrin və xalqların ictimai-siyasi həyatına, sosial-iqtisadi vəziyyətə son dərəcə güclü təsir göstərməsi ilə fərqlənmişdir. Müharibənin əsas iştirakçılarından biri olan Rusiya imperiyası müharibənin gedişində dağılmağa başlamış, bu nəhəng dövlətdə yaşayan xalqların həyatında yeni mərhələ başlanmışdır. Müharibənin doğurduğu məhrumiyyətlərdən, aclıq və səfalətdən bacarıqla istifadə edən bolşeviklər Rusiyanın mərkəzi hissəsində Oktyabr çevrilişini gerçəkləşdirərək hakimiyyətə gəlmiş, imperiyada yaşayan xalqların bir çoxu, o cümlədən də Azərbaycan xalqı xaos və erməni-bolşevik soyqırımlarından qurtulmaq üçün müstəqil dövlətçiliyi bərpa etməyə müvəffəq olmuş, Azərbaycan Xalq Cümhuriyyəti yaratmışdır. Müsəlman Şərqində bu ilk respublikanın yaradılmasını zəruri edən ilkin şərtlər Birinci dünya müharibəsi dövründə, bilavasitə bu qanlı savaşmanın təsiri ilə formalaşmışdır. Ona görə də, müharibənin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə təsirinin araşdırılması çox böyük elmi aktuallığa malikdir.

Birinci dünya müharibəsi ilə bağlı məsələlər istər sovet hakimiyyəti illərində, istərsə də Sovet İttifaqının dağılmasından sonrakı dövrdə əsasən tədqiqatçıların diqqətindən kənarda qalmış, İkinci dünya müharibəsi ilə müqayisədə bu mövzuya dəfələrlə az müraciət edilmişdir. Bu, bir neçə amillə bağlıdır. Əvvəla, həm sovet tarixşünaslığında, həm də müasir dövrün tarixi ədəbiyyatında Rusiyanın ağır məğlubiyyətə uğradığı, müttəfiqlik öhdəliklərini xəyanətkarcasına pozub, düşmənlə separat sülh bağladığı bu müharibədən geniş bəhs etmək məqsədəuyğun sayılmamışdır. Digər tərəfdən, Oktyabr çevrilişini tarixi inkişafın obyektiv və qanunauyğun nəticəsi sayan rəsmi sovet ideologiyasının mənafeyinə uyğun olaraq, müharibə dövründə Rusiya imperiyasında baş verənləri dərindən və hərtərəfli araşdırmaq əvəzinə, bolşevik çevrilişinə haqq qazandıran ayrı-ayrı faktları seçib şərh etməklə kifayətlənilmişdir. Çünki, əks halda 1916-cı ildə imperiya miqyasında sənaye istehsalında əhəmiyyətli irəliləyiş olması və s. bu kimi gerçək faktlar geniş ictimaiyyətə bəlli olardı.

Bu amillər sovet dövründə Azərbaycan tarixşünaslığında Birinci dünya müharibəsinə aid mövzulara nisbətən az diqqət yetirilməsinə, müstəqillik qazanıldıqdan sonra isə Azərbaycan Xalq Cümhuriyyəti dövrü problemlərinin kölgəsində qalmasına səbəb olmuşdur. Ona görə də, Birinci dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatına təsiri mövzusunun ayrıca bir elmi problem kimi tədqiq edilməsi Vətən tarixşünaslığında mövcud olan boşluğu doldurmağa xidmət edir.



XX əsrin 90-cı illərində Azərbaycanın Ermənistan tərəfindən növbəti dəfə təcavüzə məruz qalması ilə əlaqədar, respublikamız son dərəcə ağır problemləri bir-birinin ardınca həll etmək məcburiyyətində qalmışdır. Bu baxımdan, Şimali Azərbaycanın Birinci dünya müharibəsi dövründə üzləşdiyi problemlərin, o cümlədən iqtisadiyyatın müharibə dövrünün tələblərinə uyğunlaşdırılması, sənaye müəssisələrinin hərbi məhsul istehsalına yönəldilməsi və s. bu kimi məsələləri araşdırmaq təkcə elmi aktuallıq kəsb etməklə qalmır, həm də çox mühüm nəzəri və praktik əhəmiyytə malikdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işinin xronoloji çərçivəsi Birinci dünya müharibəsinin başlandığı 1914-cü ildən 1917-ci ilədək olan dövrü əhatə edir. 1917-ci ilin fevral ayında Rusiya imperiyasının məhv olması, inqilabi dəyişikliklərdən doğan yeni, əvvəlki dövrdən tamam fərqli vəziyyətin yaranması ilə bağlı tədqiqat işində həmin dövrə qədərki iqtisadi proseslərin araşdırılması məqsədəuyğun hesab edilmişdir. Eyni zamanda müharibə illərində iqtisadiyyatda baş verən dəyişikliklərin mahiyyətinin tam şəkildə aydınlaşdırılması üçün müharibə ərəfəsindəki iqtisadi vəziyyət də nəzərdən keçirilmişdir. Bu cür yanaşma müharibə başlandıqdan sonra Şimali Azərbaycan iqtisadiyyatında baş verən azalma və böhran meyllərinin miqyasını bütün dolğunluğu ilə araşdırmağa imkan vermişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Birinci dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələrinə təsiri ilə bağlı məsələlər haqqında Vətən tarixşünaslığında ümumi xarakterli əsərlərdə: akademik nəşrlərdə[1], dərsliklərdə[2] və iqtisadiyyatın ayrı-ayrı sahələrinə həsr edilmiş məqalə toplularında[3] müəyyən məlumatlar verilsə də bu problem indiyə kimi ayrıca tədqiqat obyekti olmamışdır.

Bununla bərabər qeyd etmək lazımdır ki, müharibə dövründə Şimali Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərdən bu və ya digər dərəcədə bəhs edildiyi xeyli tarixi ədəbiyyat mövcuddur. Onların

---

[1] Azərbaycan tarixi. Üç cilddə, II c., Bakı, 1964; Azərbaycan tarixi. Yeddi cilddə, V c., Bakı, 2001

[2] История Азербайджана с древнейших времен до начала XX в. (Под ред. чл.-корр. АН Азербайджана И.Г.Алиева). Баку, 1995; XX əsr Azərbaycan tarixi, prof. Y.B.Yusifov və prof. T.T.Vəliyevin ümumi redaktəsi ilə, c.II, Bakı, 2004

[3] Расцвет экономики Азербайджанской ССР. Баку,1967; Летопись науки в Азербайджане (техника). Ч. II, Баку, 1969; Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане. (Под ред. А.С.Сумбатзаде). Баку, 1983

içərisində akademik Ə.S.Sumbatzadənin[1], Azərbaycan EA-nın müxbir üzvü M.Ə.İsmayılovun[2], tarix elmləri doktoru, prof. T.T.Vəliyevin[3] əsərləri Azərbaycan tarixində özünəməxsus yeri olan fundamental tədqiqatlar, sanballı monoqrafiyalar kimi xüsusi qeyd edilməlidir. Bu əsərlərdə XIX əsrdə və XX əsrin başlanğıcında Şimali Azərbaycanda sənayenin və kənd təsərrüfatının inkişafından əsaslı surətdə bəhs edilmiş, Birinci dünya müharibəsində iqtisadiyyatda baş verən dəyişikliklər haqqında da bir sıra qiymətli fikirlər irəli sürülmüşdür. Xüsusən də, prof. T.T.Vəliyevin ipək sənayesinə həsr etdiyi monoqrafiyasında 1900-cü ildən başlayaraq 1917-ci illədək davam edən xronoloji çərçivədə baş verən inkişaf və yeniliklər ardıcıl tədqiq edilmişdir.

Müharibə dövründə Şimali Azərbaycanda iqtisadi vəziyyətin öyrənilməsi sahəsində tarix elmləri doktoru, prof. S.S.Əliyarovun neft inhisarlarının fəaliyyətinin araşdırılmasına həsr olunmuş fundamental tədqiqat əsəri[4] və tarix elmləri doktoru M.C.İbrahimovun imperializm dövründə neft sənayesinin vəziyyətindən bəhs edən əsəri[5] mühüm əhəmiyyətə malikdir. Bu əsərlərdə müharibənin neft inhisarlarına, neft çıxarılması və neft emalına təsirinin müxtəlif aspektləri araşdırılmışdır. Bu əsərlər neft sənayesindəki dəyişikliklərin, ilk növbədə istehsalın ildən-ilə ixtisar edilməsinin digər sənaye sahələrinə, qəzalarda təsərrüfat həyatına təsirinin aydınlaşdırılmasına yardım etmişdir.

Birinci dünya müharibəsi illərində dünyanın aparıcı dövlətlərinin Şimali və Cənubi Azərbaycanla bağlı siyasətinə M.C.Qasımov 3 hissədən ibarət böyük araşdırma həsr etmişdir. Bu monoqrafiyanın birinci hissəsində[6] Şimali Azərbaycanın müharibə ərəfəsində və dövründə iqtisadi potensialını

[1] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, 1964; yenə onun. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. М., 1972

[2] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı,1960; yenə onun. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку, 1982

[3] Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı, 1977; yenə onun. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987

[4] Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку, 1974

[5] Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку,1984; İsmayılov M.Ə., İbrahimov M.C. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı, 1991

[6] Qasımov M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. I hissə (1914-cü il avqust – 1917-ci il oktyabr). Bakı, 2000



xarakterizə edən maraqlı faktlar qeyd edilmişdir.

Q.Ə.Əliyevin XIX əsrdə və XX əsrin ilk onilliklərində nəqliyyatın inkişafına, nəqliyyat əlaqələrinin iqtisadiyyatın müxtəlif sahələrinə təsiri məsələlərinə həsr etdiyi monoqrafiyasında Birinci dünya müharibəsi illərində nəqliyyatda, xüsusən də dəmir yolları ilə yükdaşımalarında baş verən dəyişikliklərdən də bəhs olunmuşdur[1].

H.N.Həsənovun Şimali Azərbaycan kəndinin XIX əsrin sonu – XX əsrin başlanğıcında təsərrüfat həyatına həsr edilmiş monoqrafiyasında[2] kənd təsərrüfatının əsas sahələrində kapitalist münasibətlərinin inkişafı ilə bağlı baş vermiş dəyişikliklər geniş faktik material əsasında şərh edilmişdir. F.M.Məmmədovun Gəncə şəhərinin kapitalizm dövrü tarixinə[3], S.Y.Süleymanovun 1914-1920-ci illərdə Azərbaycanda kənd təsərrüfatının vəziyyətinə[4], C.X.Hüseynovun Birinci dünya müharibəsi dövründə kəndlilərin vəziyyəti və sinfi mübarizəsinə[5], M.Ə.Musayevin XX əsrin əvvəlində Bakı şəhərinin ticarətinə həsr etdikləri tədqiqat əsərlərində[6], N.A.Şaxramanovanın Birinci dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələrində yaratdığı dəyişikliklərə həsr etdiyi məqaləsində[7] müharibə dövründə iqtisadi vəziyyətin ağırlaşması, əhalinin ərzaqla və s. zəruri məhsullarla təchizi məsələləri haqqında maraqlı faktlar qeyd olunmuşdur.

Tədqiqat obyekti kimi seçilmiş mövzuya aid ayrı-ayrı faktlar keçmiş ittifaq miqyasında nəşr olunmuş ümumi xarakterli əsərlərdə[8] və monoqra-

[1] Əliyev Q.Ə. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr –XX əsrin ilk onillikləri). Bakı, 2001

[2] Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку, 2007

[3] Мамедов Ф.Н. Город Гянджа в период капитализма (1968-1917 гг.). Автореферат дисс. … докт. ист. наук. Баку,1990

[4] Сулейманов С.Ю. Сельское хозяйство Азербайджана в 1914-1920 гг. Автореферат дисс. … канд. экон. наук. Баку,1967

[5] Гусейнов Дж.Х. Положение и классовая борьба крестьян Азербайджана в период первой мировой войны (июль 1914 – февраль 1917 гг.). / Автореферат дисс. … канд. ист. наук. Баку,1967

[6] Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti (1900-1917-ci illər). Bakı, 1975

[7] Шахраманова Н.А. Влияние первой мировой войны на экономики Азербайджана. // Уч. Зап. АГУ им. С.М.Кирова. Серия истории и философии, 1964, № 7, с.37-46

[8] История СССР. С древнейших времен до наших дней, т. VI, М., 1968; История первой мировой войны. 1914-1918 (Под ред. И.И.Ростунова), т.1, М., 1975; История дипломатии, т.2, М., 1963; История СССР. XIX – начало XX в. (Под ред. И.А.Федосова). М.,1987

fik tədqiqatlarda öz əksini tapmışdır. Bunların içərisində, heç şübhəsiz ilk növbədə Birinci dünya müharibəsi dövründə Rusiya imperiyasının iqtisadi vəziyyəti haqqında görkəmli rus-sovet tarixçisi A.L.Sidorovun fundamental monoqrafiyaları və məqalələri[1] xüsusi qeyd edilməlidir. Bu müəllifin tədqiqatlarında zəngin arxiv materialları, rəsmi hakimiyyət qurumlarının sənədləri əsasında imperiya miqyasında müharibənin təsiri ilə iqtisadiyyatın müxtəlif sahələrində, maliyyə sistemində, dəmir yolu nəqliyyatında baş vermiş dəyişikliklər əsaslı surətdə araşdırılmışdır. R.B.Klaus, P.İ.Lyaşşenko, R.S.Livşits, A.A.Lozinski, A.P.Poqrebinski, P.A.Xromov və digər müəlliflərin əsərlərində[2] müharibə illərində, xüsusən də son mərhələdə Rusiyanın iqtisadi və maliyyə vəziyyətinin kəskin surətdə pisləşməsi səbəbləri araşdırılmışdır ki, bunların Şimali Azərbaycan miqyasında baş verən dəyişikliklərin tədqiq edilməsi üçün də mühüm əhəmiyyəti vardır. Bu, müharibə dövründə Rusiya imperiyası miqyasında kənd təsərrüfatının vəziyyətini təhlil etmiş A.M.Anfimovun, S.M.Dubrovskinin əsərlərinə[3] də eyni dərəcədə aiddir. İmperiya miqyasında toxuculuq sənayesinin inkişafı tarixinə V.Y.Laveriçevin və K.A.Pajitnovun həsr etdikləri monoqrafiyalarında regionlarda, o cümlədən Cənubi Qafqazda pambıq-parça istehsalı, Mərkəzi Sənaye rayonunun mahlıcla təmin olunmasında Şimali Azərbaycanın və Mərkəzi Asyanın rolu məsələləri təhlil edilmişdir[4].

XIX əsrdə və XX əsrin əvvəllərində Gürcüstanın və qismən də Cənubi

[1] Сидоров А.Л. К истории топливного кризиса в России в годы первой мировой войны (1914-1917 гг.). // Исторические записки, 1957, т.59; yenə onun. Финансовое положение России в годы первой мировой войны. М., 1960; yenə onun. Экономическое положение России в годы первой мировой войны. М., 1973 və s.

[2] Клаус Р.В. Война и народное хозяйство России (1914-1917 гг.) М.-Л., 1926; Лященко П.И. История народного хозяйства СССР, т.II, М.: Госполитиздат, 1950; Лившиц Р.С. Размещение промышленности в дореволюционной России. М., 1955; Лозинский А.А. Экономическая политика Временного правительства. Л., 1929; Погребинский А.П. Очерки истории финансов дореволюционной России (XIX-XX вв.). М.,1954; yenə onun. Государственные финансы царской России в эпоху империализма. М., 1959; Хромов П.А. Экономическая история СССР. Период промышленного и монополистического капитализма в России. М., 1982 və s.

[3] Анфимов А.М. Российская деревня в годы первой мировой войны (1914 – февраль 1917г.). М.,1962; Дубровский С.М. Сельское хозяйство и крестьянство России в период империализма. М.,1975

[4] Лаверычев В.Я. Монополистический капитал в текстильной промышленности России (1900-1917 гг.) М., 1963; Пажитнов К.А. Очерки истории текстильной промышленности дореволюционной России. М., 1958



Qafqazın digər regionlarının iqtisadi vəziyyətinə dair bir çox sanballı əsərin müəllifi olan görkəmli gürcü tədqiqatçısı P.V.Ququşvili özünün çoxsaylı tədqiqat əsərlərində müharibə dövründə Cənubi Qafqazın müxtəlif bölgələrində, o cümlədən Şimali Azərbaycan iqtisadiyyatında baş verən dəyişikliklərə də toxunmuşdur[1]. Bu müəllifin əsərləri daha çox Borçalı qəzası üzrə faktlarla tanış olmaq baxımından qiymətlidir. Bu baxımdan, Ş.İ.Basilayanın monoqrafiyası müəyyən qədər istisnalıq təşkil edir. Bu əsər bütövlükdə Cənubi Qafqazın Birinci dünya müharibəsi dövründəki vəziyyətinə həsr edilmişdir[2]. Müəllif əsasən müharibənin ilk iki ilinə aid statistik göstəricilərə istinad etmişdir. Monoqrafiyada Şimali Azərbaycana aid bəzi faktlara da yer verilmişdir.

Göründüyü kimi, Şimali Azərbaycanda təsərrüfat həyatına, iqtisadiyyatın ayrı-ayrı sahələrinə Birinci dünya müharibəsinin təsiri problemi Vətən tarixşünaslığında ayrıca araşdırılmamışdır. Çünki yuxarıda adları çəkilən müəlliflərin tədqiqatlarının məqsədi bütövlükdə XIX əsrdə və XX əsrin ilk onilliklərində iqtisadiyyatın inkişafı tarixini araşdırmaq olduğundan, müharibə dövrünün iqtisadi həyata, o cümlədən də sənayenin və kənd təsərrüfatının müxtəlif sahələrinə təsirinin yalnız bəzi önəmli cəhətlərinə toxunmaqla kifayətlənmişlər.

**Tədqiqatın mənbə bazası.** Tədqiqat işində müxtəlif zamanlarda nəşr olunmuş sənəd topluları, arxiv fondlarında saxlanılan sənədlər, dövri mətbuat materialları əsas mənbə bazasını təşkil etmişdir. Bu, bir-birindən fərqli mənbələrdən götürülmüş və müxtəlif xarakterli sənəd və materialların kompleks şəkildə tədqiqata cəlb edilməsi mövzunun bütövlükdə və tam şəkildə araşdırılmasına imkan vermişdir.

Mənbələrin əhəmiyyətli bir hissəsi müharibə dövründə və sonrakı illərdə sənəd topluları şəklində nəşr olunmuşdur. Onların içərisində Rusiya imperiyasında müharibə dövrünün tələblərinə uyğun olaraq sənaye müəssisələrinin, dəmir yolu nəqliyyatının işini yenidən qurmaq, cəbhənin ehtiyaclarını ödəmək üçün əsas qərarların qəbul edildiyi "Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirənin jurnalları" adlı materiallar toplusu[3] xüsusilə böyük əhəmiyyətə malikdir. Bu topludakı materiallar imperiya miqyasında

[1] Гугушвили П.В. Развитие промышленности в Грузии и Закавказье в XIX-XX вв., т.1, Тбилиси, 1957; yenə onun. Табаководство в Грузии и Закавказье (1901-1921гг.). – Труды Института Экономики АН Груз. ССР, т.2, Тбилиси,1959; yenə onun. Шелководство в Грузии и Закавказье в XIX-XX вв. Тбилиси, 1960; yenə onun. Развитие сельского хозяйства в Грузии и Закавказье в XIX-XX вв., т.1, Тбилиси, 1968

[2] Басилая Ш.И. Закавказье в годы первой мировой войны. Сухуми, 1968

[3] Журналы Особого совещания по обороне государства. 1915 год. М., 1975

müharibənin doğurduğu problemləri həll etmək üçün ali hakimiyyətin gördüyü tədbirlər, xüsusən döyüşən ordunun silah, döyüş sursatı, paltar və s. zəruri məhsullarla təchizi, iri şəhərlərin və sənaye rayonlarının yanacaqla təmin olunması, dəmir yolu ilə yükdaşımaların qaydaya salınması üçün atılan addımlar haqqında çox mühüm məlumatları əks etdirir.

Bu tipli digər çox mühüm sənədlər toplusu Rusiya hökumətinin müharibə dövründə qəbul etdiyi qərar və sərəncamların ardıcıl çap edildiyi külliyyatlardır[1]. Hökumətin hərbi səfərbərlik, vergi və rüsumların artırılması haqqında rəsmi qərar və sərəncamları, digər normativ sənədləri bu külliyyatlarda cəmlənmişdir.

Rusiya imperiyası miqyasında XX əsrin əvvəlində, o cümlədən Birinci dünya müharibəsi ərəfəsi və dövründə metallurgiya və neft sənayesində inhisarçı birliklərin vəziyyətinə həsr olunmuş sənəd toplularında[2] metal və yanacaq istehsalında baş verən dəyişikliklər haqqında qiymətli məlumatlar toplanmışdır. Cənubi Qafqaz dəmir yolları ilə yükdaşımaları haqqında nəşr olunmuş statistik toplular[3] da müharibə dövründə Cənubi Qafqazdakı, o cümlədən Azərbaycandakı dəmir yolu stansiyalarının qəbul edib yola saldığı yüklərin miqdarının necə dəyişməsini izləməyə imkan vermişdir.

Dissertasiya mövzusu üzrə tədqiqat işi apararkən çoxlu sayda arxiv materiallarından da istifadə edilmişdir. Onların içərisində Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin fondlarında saxlanılan sənədlər xüsusilə mühüm əhəmiyyətə malikdir. Bu arxivin Qafqaz canişini dəftərxanası (fond 1), Bakı quberniya idarəsi (fond 44), Bakı qubernatorunun dəftərxanası (fond 45), Bakı Müvəqqəti general-qubernatorunun dəftərxanası (fond 485), Bakı şəhəri Ərzaq Müşavirəsi dəftərxanası (fond 512), Yelizavetpol (Gəncə) quberniya idarəsi (fond 61), Yelizavetpol (Gəncə) qubernatoru dəftərxanası (fond 62), Bakı-Dağıstan Üzümçülük və Şərabçılıq Komitəsi (fond 287) və digər fondlarında mühafizə edilən sənədlər və materiallar müharibə dövründə Şimali Azərbaycanın iqtisadi vəziyyətini öyrənmək üçün mühüm faktlarla zəngindir. Onların içərisində müharibə dövründə sənaye istehsalının necə sürətlə azalmasını, kənd təsərrüfatı sahələrində dəyişiklikləri əks etdirən faktlar və rəqəmlər

[1] Собрание узаконений и распоряжений правительства, издаваемое при правительствующем сенате. Отд.1, 1914-1917 гг.

[2] Монополии в металлургической промышленности России. 1900-1917. Документы и материалы. М.-Л., 1963; Монополистический капитал в нефтяной промышленности России. 1914-1917. Документы и материалы. М.-Л., 1963

[3] Краткие обзоры коммерческой деятельности Закавказских железных дорог по статистическим данным о перевозках пассажиров и грузов за 1913-1916 гг. Тифлис, 1914-1918



mövzunu dolğun əks etdirməyə imkan vermişdir.

Mövzunun tədqiqi zamanı dövri mətbuat materiallarından da geniş istifadə edilmişdir. "Kaspiy" (1900-1917), "Bakinskie qubernskie vedomosti" (1914-1917), "Yelisavetpolskie qubernskie vedomosti" (1914-1917) qəzetlərində, "Kavkazskoye xozyaystvo" (1900-1917), "Neftyanoye delo" (1900-1917) və digər jurnallarda getmiş materiallar müharibə dövründə iqtisadi vəziyyət, ərzaq təchizatı, dəmir yolları ilə yükdaşımaları və s. bu kimi məsələləri araşdırmaq üçün çox gərəkli faktlarla zəngindir.

Qeyd etmək lazımdır ki, arxiv fondlarında əsasən müharibənin ilk iki ilinə aid statistik göstəricilər saxlanmışdır. Arxiv fondlarında mühafizə edilən qubernatorların imzaladıqları son rəsmi hesabatlar 1915-ci ilə aiddir. Sonrakı illər üzrə hesabatlar müharibənin son dövründə baş vermiş inqilabi dəyişikliklər, mövcud dövlət idarə strukturlarının ləğv edilməsi, anarxiya və dağıntılarla əlaqədar itirilmiş və ya heç hazırlanmamışdır. Qafqaz təqvimlərinin buraxılması isə 1916-cı ildən dayandırılmışdır. Sonuncu, 1917-ci il üzrə Qafqaz təqvimindəki statistik göstəricilər isə 1915-ci ilin sonuna aiddir[1]. Sovet hakimiyyətinin ilk illərində tərtib olunmuş toplulardakı statistik məlumatlar[2] isə tam deyildir, həm də 1916-1917-ci illərə aid faktik göstəricilər azdır və ziddiyyətlidir. Belə obyektiv çətinliklərə baxmayaraq müxtəlif xarakterli mənbələrin: arxiv sənədlərinin, tarixi ədəbiyyatdan götürülmüş faktların, dövri mətbuat materiallarının kompleks şəkildə cəlb edilməsi Şimali Azərbaycanda Birinci dünya müharibəsi dövründə iqtisadiyyatda baş verən prosesləri aydınlaşdırmağa imkan vermişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycan iqtisadiyyatında (Bakı sənaye rayonu istisna olmaqla) baş verən dəyişiklikləri bütövlükdə və tam şəkildə araşdırmaqdır. Tədqiqat zamanı müharibənin qəzalarda əsas sənaye və kənd təsərrüfatı sahələrinə, xırda istehsala, nəqliyyata, ticarətə necə təsir etməsini, ayrı-ayrı istehsal sahələrinin cəbhənin ehtiyaclarını ödəmək üçün hərbi sifarişlər yerinə yetirilməsinə cəlb edilməsini, kənd təsərrüfatı məhsulları istehsalında baş verən struktur dəyişikliklərini araşdırmağa daha çox diqqət yetirilmişdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin lazımi səviyyədə yerinə yetirilməsinə səy göstərilmişdir:

[1] Кавказский календарь на 1917 г., отд. статистики. Тифлис, 1916

[2] Весь Азербайджан. Адресная и справочная книга на 1924 г. Баку, 1924; Война и топливо. 1914-1917 гг., М.-Л.,1930; Все Закавказье. Территория, экономика, строй. Тифлис, 1923; Статистический справочник по Азербайджану на 1926 г. Баку, 1927

– müharibə başlandıqdan sonra bütövlükdə Rusiya imperiyası miqyasında və Şimali Azərbaycanda iqtisadiyyatın aparıcı sahələrində baş verən başlıca yenilikləri araşdırmaq və müqayisəli təhlilini aparmaq;

– Şimali Azərbaycan qəzalarında yerləşən əsas sənaye müəssisələrində müharibə dövründə istehsalın ümumi həcminin dəyişməsi dinamikasını, böhran meyllərinin dərinləşməsi səbəblərini aydınlaşdırmaq;

– əkinçilikdə müharibənin doğurduğu çətinliklərin: işçi qüvvəsinin əhəmiyyətli bir hissəsinin cəbhəarxası işlərə səfərbərliyə alınması, iş heyvanlarının və qoşqu vasitələrinin müsadirə edilməsi, torpaq vergisinin artırılması və s. bu kimi amillərin taxıl istehsalına təsirini araşdırmaq;

– texniki bitkilər əkilməsi, çəkilliklər salınması, bağçılıq və bostançılıq sahələrində müharibə dövründə baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini və onların ümumi iqtisadi vəziyyətə təsirini tədqiq etmək;

– xırda istehsal sahələrində, kustar üsulla gündəlik tələbat və məişət əşyaları istehsalında müharibə zamanı baş verən dəyişiklikləri öyrənmək;

– müharibə illərində nəqliyyatın ümumi vəziyyətini, dəmir yolları ilə yükdaşımaların həcminin və təyinatının dəyişməsi dinamikasını konkret faktlarla təhlil etmək;

– müharibənin sonlarına doğru Şimali Azərbaycan və ümumimperiya miqyasında sosial-iqtisadi həyatda böhran meyllərinin dərinləşməsinə təsir edən amilləri aydınlaşdırmaq;

– daxili və xarici ticarətdə müharibə illərində baş verən dəyişiklikləri, bahalaşmanın artmasını, aclıq və qıtlığı doğuran səbəbləri müəyyən etmək.

**Dissertasiya işinin metodoloji əsası.** Mövzu üzərində işləyərkən mənbələrdə və tarixi ədəbiyyatdakı faktlar, onlara tənqidi yanaşma prinsipinə riayət etməklə, tam şəkildə tədqiqata cəlb edilmişdir. Həm də bu zaman müxtəlif xarakterli mənbələrdən götürülmüş faktları sistemləşdirməyə, zəruri ümumiləşdirmələr aparmağa, müqayisə və qarşılaşdırma yolu ilə təhlil etməyə səy göstərilmişdir. Tədqiqat prosesində tarixilik, məntiqi və xronoloji ardıcıllıq, bütün fakt və hadisələrə obyektiv yanaşma əsas meyar olaraq götürülmüşdür. Müharibə dövründə Şimali Azərbaycanın iqtisadi vəziyyətinin obyektiv mənzərəsinin yaradılması üçün, dissertasiya işində yeri gəldikcə Cənubi Qafqazın digər bölgələri, Mərkəzi Rusiya ilə müqayisələr aparılmışdır. Müqayisə və təhlilə cəlb edilmiş faktların qiymətləndirilməsi zamanı görkəmli dövlət xadimlərinin, nüfuzlu elm adamlarının mülahizə və ideyaları əsas götürülmüşdür.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya Vətən tarixşünaslığında Birinci dünya müharibəsinin Şimali Azərbaycan iqtisadiyyatına təsiri elmi probleminin çoxsaylı mənbə və faktlar əsasında ətraflı və tam şəkildə araşdırıldığı ilk tədqiqat əsəridir. Dissertasiya işinin başlıca



yenilikləri aşağıdakılardır:

– müharibə dövründə Şimali Azərbaycan sənayesində baş verən dəyişikliklər illər üzrə ardıcıl izlənmiş, mis emalı, kükürd turşusu istehsalı, toxculuq sahələrində cəbhənin ehtiyaclarını ödəmək üçün görülən tədbirlər tədqiq edilmişdir;

– kənd təsərrüfatında taxıl və texniki bitkilər əkini sahələrinin dəyişməsi dinamikası, tut bağları və üzümlüklərin ixtisar edilməsi səbəbləri, kəndli təsərrüfatında baş verən digər yeniliklər ətraflı təhlil edilmişdir;

– müharibə illərində maldarlıq təsərrüfatında baş verən dəyişikliklər, iş heyvanlarının cəbhənin ehtiyacları üçün müsadirə edilməsinin doğurduğu çətinliklər izah edilmişdir;

– müharibənin nəqliyyat əlaqələrinin ümumi vəziyyətinə, xüsusən də dəmir yolları ilə yükdaşımalarına təsiri, yükdaşımalarda kəmiyyət göstəriciləri kompleks şəkildə öyrənilmişdir;

– müharibənin təsiri ilə xırda istehsal sahələrində, kustar sənətkarlıqda gündəlik tələbat mallarının, cəbhənin ehtiyac duyduğu məhsulların istehsalını artırmaq tədbirləri geniş faktik material əsasında şərh edilmişdir;

– əhalinin ərzaqla təchizinin pisləşməsi, sürətlə baş verən bahalaşmanın doğurduğu səbəblər, ticarətdə baş verən digər dəyişikliklər ilk dəfə hərtərəfli araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəaları və nəticələrindən Şimali Azərbaycan tarixi üzrə ümumi xarakterli əsərlər, orta və ali məktəblər üçün dərslik və dərs vəsaitləri hazırlanmasında istifadə edilə bilər. Dissertasiyadakı faktik material XX əsrin əvvəllərinə aid monoqrafik tədqiqatlar aparılması, müharibə və iqtsadiyyatın qarşılıqlı təsiri probleminin araşdırılması baxımından da faydalıdır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarixi» şöbəsinin 14 iyul 2008-ci il və 6 may 2009-cu il tarixli iclaslarında müzakirə edilmiş və müdafiəyə tövsiyyə edilmişdir. Dissertasiya işinin əsas müddəaları müəllifin nüfuzlu elmi jurnallarda nəşr etdirdiyi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat obyekti kimi seçilmiş mövzunun elmi aktuallığı və əhəmiyyəti, xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə dərəcəsi, əsas mənbələr şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası, elmi yenilikləri, əməli əhəmiyyəti qeyd olunmuşdur.

Dissertasiyanın birinci fəsli **"Müharibə və Şimali Azərbaycan sənayesi"** adlanır. Bu fəsildə Rusiya imperiyasının Birinci dünya müharibəsinə qoşulmasından sonra Bakı sənaye rayonu istisna olmaqla, Şimali Azərbaycan qəzalarındakı sənaye sahələrində baş verən dəyişikliklərdən bəhs olunur və dörd bölmədən ibarətdir.

"**Rusiyanın müharibəyə girməsi və onun təsərrüfat həyatında yaratdığı dəyişikliklər"** adlanan birinci bölmədə Birinci dünya müharibəsi başlandıqdan sonra imperiya miqyasında iqtisadi həyatda baş verən önəmli dəyişikliklər şərh edilmişdir. Qeyd edilmişdir ki, müharibə illəri üçün iqtisadiyyatın hərbiləşdirilməsi, xüsusən mülki məhsul istehsal edən fabrik və zavodların kütləvi surətdə hərbi məhsul istehsalına keçirilməsi, cəbhənin ehtiyacı üçün zəruri olan məhsulların istehsalının üstün yer tutması, hərbi xərclərin kəskin şəkildə yüksəlməsi, inflyasiyanın əvvəlki dövrlə müqayisədə misli görünməmiş səviyyəyə çatması, qiymətlərin çox böyük sürətlə artması xarakterik idi. Müharibə uzandıqca onun iqtisadi həyatda yaratdığı dağıntılar daha da artdı, böhran meylləri dərinləşdi.

Ticarət və sənaye nazirliyinin 1914-cü il oktyabrın 1-nə olan məlumatına görə, müharibənin ilk 2 ayı ərzində Rusiya imperiyası üzrə 502 sənaye müəssisəsi işini dayandırdı, mindən artıq müəssisə isə istehsalı əsaslı surətdə ixtisar etdi[1]. Yüz minlərlə fəhlə, texniki işçi və mühəndis orduya çağırıldı. Artıq 1914-cü ilin sonunda fabrik və zavodlar öz işçilərinin 30-40 faizə qədərini itirmişdi[2].

Müharibənin sənaye sahələrinə çox ciddi təsiri həm də sənaye müəssisələrinin hərbi sifarişlərin yerinə yetirilməsinə səfərbər edilməsi ilə bağlı idi. Cəbhənin artan ehtiyaclarını ödəmək, xüsusən də döyüş sursatı istehsalında ciddi artıma nail olmaq üçün çar II Nikolayın əmrilə 1915-ci ilin yazında Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirə yaradıldı[3] və ona geniş səlahiyyətlər verildi. Bu addımlar 1915-ci ilin payızında sənaye müəssisələrinin hərbi ehtiyaclar üçün səfərbər edilməsinə imkan verdi. Nəticədə imperiya üzrə sənaye məhsulu istehsalı hərbi sifarişlərin hesabına artmağa başladı. Artıq 1916-cı ildə sənaye istehsalı 1913-cü illə müqayisədə 121,5 faiz çoxaldı.

Çar hökuməti hərbi xərcləri ödəmək üçün vergiləri kəskin şəkildə artırdı. Həm bütün növ vergilər, rüsumlar artırıldı, həm də yeni vergilər

[1] Клаус Р.В. Ук. соч., с.41
[2] Сидоров А.Л. Экономическое положение России в годы Первой мировой войны, с.,337
[3] Журналы Особого совещания по обороне государства. 1915 год. М., 1975, с.221-222



tətbiq edildi, dolayı vergilər qoyuldu. Nazirlər Şurasının 1914-cü il dekabrın 1-də qəbul etdiyi qərara görə tütün məmulatı üzərinə, yenə həmin il dekabrın 11-də qəbul etdiyi qərara görə pivə istehsalı üzərinə qoyulan aksiz vergiləri artırıldı, 1915-ci il üçün xüsusi sahibkarlardan alınan torpaq vergisi 100 faiz, kəndlilərdən alınan vergi isə 50 faiz yüksəldildi[1] və s.

Birinci dünya müharibəsinin başlanması imperiya miqyasında kənd təsərrüfatına da ağır təsir etmişdi. Müharibənin kənd təsərrüfatına ilk və ən böyük zərbəsi hərbi səfərbərliklə bağlı idi. Bütövlükdə, müharibə dövründə Rusiya imperiyası üzrə 16 milyon insan hərbi səfərbərliyə alındı[2] ki, onların da əsas hissəsi kəndlilərdən ibarət idi. Müharibənin kənd təsərrüfatına digər mənfi təsiri maşın və texnika ilə təchizatın pisləşməsi ilə əlaqədar idi. Müharibə illərində sadə kənd təsərrüfatı alətləri ilə təchizat da pisləşdi.

Müharibə ddövründə cəbhənin artmaqda olan ehtiyaclarını bu və ya digər dərəcədə ödəmək, hərbi təyinatlı və mühüm həyati əhəmiyyətli digər yüklərin daşınmasını təmin etmək üçün dəmir yolu nəqliyatının intensiv istismarı tezliklə öz ağır nəticələrini göstərdi. Artıq, 1917-ci ilin başlanğıcında bütün imperiya üzrə paravozların 17,5 faizi, yük vaqonlarının isə 6,9 faizi istifadəyə tam yararsız vəziyyətə düşmüşdü[3]. Nəticədə dəmir yolu nəqliyyatının böhranı daha da dərinləşdi. Dəmir yolu nəqliyyatının böhranı isə, 1917-ci il Fevral inqilabı ərəfəsində bütün imperiyanı bürüyən ümumi böhranın əsas səbəblərindən biri oldu.

**"Dağ-mədən və kimya sənayesi"** adlanan ikinci bölmədə Şimali Azərbaycan qəzalarında müharibə illərində əlvan metallurgiya, kimya və daş duz istehsalı sahələrinin vəziyyəti araşdırılmışdır. Qeyd edilmişdir ki, müharibə başlandıqdan dərhal sonra Şimali Azərbaycanda ağır sənaye və yanacaq istehsalı müəsisiələrinin hərbiləşdirilməsinə başlandı. Bakı şəhərinin neftayırma müəssisələri müharibənin ilk günlərindən hərbi istehsal üçün zəruri olan məhsullar: toluol, benzol, enqler, asidol, vapor, viskozin və s. istehsalını genişləndirdilər. Təkcə Baş artilleriya idarəsinin sərəncamına 1915-ci ilin mart ayından dekabr ayına kimi 45717 min pud benzol və toluol göndərilmişdi[4]. 1915-ci ildə "Nobel qardaşları" şirkətinin benzin istehsalı zavodu, H.Z.Tağıyevin toxuculuq kombinatı, Xəzər maşınqayırma və qazan zavodları, Gədəbəy misəritmə zavodu və onlarla digər müəssisə cəbhəyə işləyən və ilk növbədə cəbhəni təmin edən

[1] Собрание узаконений и распоряжений правительства, издаваемое при правительствующем сенате. Отд.1, 1914, с.4395, 5170; 1915, с.110
[2] www.echis.ru/ekrus/, с.5
[3] Васильев Н.Г. Транспорт России в войне 1914-1918 гг. М.,1939, с.101
[4] Шахраманова Н.А. Ук. соч., с. 38

müəssisələr şurasına daxil edildi[1].

Rus ordusunun müxtəlif silah və döyüş sursatına tələbləri durmadan artdığı üçün hökumət dairələri tərəfindən digər addımlar da atılırdı. Məsələn, 1915-ci ilin sonunda Petroqrad Politexnik İnstitutunun professoru Zelinski Bakıya ezam edildi ki, buradakı neft emalı zavodlarında neftdən toluol alınmasını artırmaq və ayrıca toluol zavodu inşası məsələsini araşdırsın. Aparılan araşdırmalar nəticəsində neft emalı müəssisələrində xam neftdən toluol alınmasını 3 faizdən 10 faizə qədər artırmaq mümkün oldu[2].

Qafqazda kükürd turşusu üçün zəruri olan kükürd kolçedanı yataqları əsasən Gəncə Borçalı qəzalarında yerləşirdi. Bu bölgələrdə kükürd kolçedanı hasilatı 1913-cü ildə 470,1 min puda bərabər olmuşdu. Müharibə illərində kükürd turşusuna tələbin böyük ölçüdə artması həmin bölgələrdə kükürd kolçedanı hasilatını sürətlə genişləndirməyə vadar etdi. Artıq 1914-cu ildə 499 min pud, 1915-ci ildə 781 min pud, 1916-cı ildə isə 1,5 milyon pud kükürd kolçedanı hasil edilmişdi[3]. Bu da öz növbəsində Şimali Azərbaycanda müharibə dövründə kimya sənayesinin sürətli inkişafına, kükürd turşusu istehsalını dəfələrlə artırmağa imkan verdi.

Müharibə Azərbaycanın əlvan metal istehsalı müəssisələrinin işinə də ciddi təsir göstərdi. Hərbi sifarişlərin yerinə yetirilməsinə cəlb edilmiş bu tipli müəssisələrə güzəştlər tətbiq edildi: fəhlə və qulluqçularına möhlət verildi, yanacaq materialları ilə təchizi xüsusi nəzarətə götürüldü, hazır məhsulu hərbi təyinatlı yük kimi ləngidilmədən yola salınmağa başlandı. Bu dövrdə Gədəbəy və Zəngəzur misəritmə zavodlarından Rusiya silah və hərbi sursat istehsalı müəssisələrinə məhsul göndərilməsi böyük həcmdə davam etməkdə idi. Gədəbəy zavodunun məhsulunun daşındığı Dəllər stansiyasından 1914-cü ildə 49596 pud, 1915-ci ildə 47384 pud, 1916-cı ildə 28667 pud; Zəngəzur zavodlarının hazır məhsulunun daşındığı Yevlax stansiyasından 1914-cü ildə 80107 pud, 1915-ci ildə 75559 pud, 1916-cı ildə 78056 pud mis yola salınmışdı[4]. Bu zavodlarda istehsal olunan mis əsasən Tula mis prokatı və patron zavodları cəmiyyətinə, Moskva elektrolitik zavoduna və digər hərbi məhsul istehsal edən müəssisələrə göndərilirdi. Bu faktlardan aydın görünür ki, müharibə illərində Azərbaycanın əlvan metallurgiya zavodları mis istehsalını əsasən sabit saxlamışdı.

[1] Azərbaycan tarixi. 7 cilddə, V c., Bakı, 2001, s.177
[2] Каспий, 4 декабря 1915 г., № 271
[3] Труды Закавказского экономического совещания 1-6 марта 1923 г., ч.2, Тифлис, 1923, с.104,149
[4] Краткий обзор коммерческой деятельности Закавказских железных дорог … за 1916 г. Тифлис, 1918, с.150



Şimali Azərbaycanda dağ-mədən sənayesinin mühüm sahələrindən biri də daş duz istehsalı idi. Naxçıvan qəzasında yarıkustar üsulla daş duz çıxarılması Uluxanlı-Culfa dəmir yolu işə salındıqdan sonra sürətlə artmağa başlamışdı. Müharibə illərində bu məhsula tələbatın yüksəlməsi ilə əlaqədar Naxçıvan duz mədənindən daş duz çıxarılması geniş miqyasda davam etdirilirdi. 1916-cı ildə buradan 397 626 pud və ya XX əsrin başlanğıcına nisbətən 3 dəfə çox duz hasil edilmişdi[1]. Müharibə dövründə Bakı quberniyasının şor duz çıxarılan Zığ, Kürdəxanı, Masazır, Böyük Şor, Ceyranbatan və Cavad məntəqələrində də istehsal həcmi artmışdı. Hasil edilən duz həm yerli ehtiyacı ödəməyə sərf edilir, həm də digər regionlara göndərilirdi.

Şimali Azərbaycanda dağ-mədən sənayesinin müharibə dövründəki vəziyyətini əks etdirən bütün bu faktlar belə bir nəticə çıxarmağa imkan verir ki, mis, kükürd turşusu, duz istehsalı müharibə başlandıqdan sonra da inkişaf etməkdə davam edirdi. Bu sənaye sahələrinin məhsuluna ehtiyacın müharibə başlandıqdan sonra daha da artması sahibkarları hökumətin yaratdığı güzəştli şəraitdən yararlanaraq istehsalı genişləndirməyə sövq edirdi. Yalnız müharibənin sonunda ümumimperiya miqyasında böhranın dərinləşməsi dağ-mədən sənayesi sahələrinə də mənfi təsir göstərdi.

**“Yüngül sənaye sahələri”** adlı üçüncü bölmədə pambıqtəmizləmə, pambıq-parça istehsalı, ipək və gön-dəri emalı müəssisələrinə müharibənin təsiri tədqiq edilmişdir. Müharibə başlandıqdan sonra pambıqtəmizləmə sənayesi müəssisələrinin əksər hissəsi fəaliyyətini bütün gücü ilə davam etdirirdi. Bir sıra sahibkarlar isə hətta istehsalı genişləndirir, yeni texniki avadanlıqlar quraşdırırdılar. 1915-ci ildə Salyanda, Göyçayda, Cavad qəzasının Petropavlovka və Qarallar kəndlərində yeni, o dövr üçün müasir avadanlıqlarla təchiz olunmuş pambıqtəmizləmə zavodları işə salınmışdı. İstehsal edilən mahlıc başlıca olaraq Polşa çarlığına – Lodza və Mərkəzi Rusiyadakı pambıq-parça fabriklərinə yola salınırdı[2]. Mahlıcın bir hissəsi də Bakı, Tiflis və Dərbənd toxuculuq, əyiricilik fabriklərində, həmçinin yerlərdə məişət ehtiyacları üçün və kustar istehsal sahələrində işlədilirdi. Müharibə dövründə hərbi sifarişlərin çoxalması ilə əlaqədar toxuculuq fabrikləri istehsal həcmini kəskin surətdə artırmışdı.

Lakin müharibənin uzanması pambıqtəmizləmə və pambıq-parça sahələrinə ağır təsir etdi. Yüngül sənayeyə xidmət edən azsaylı maşınqayırma zavodları 1915-ci ilin yayından etibarən ehtiyat hissələri və xırda

[1] Басилая Ш.И. Ук. соч., с. 281
[2] Тимофеев С.Н. Хлопководство в Закавказье. – Все Закавказье, с.75

texniki avadanlıq istehsalını ixtisar etməyə başladılar[1]. Nəticədə, yüngül sənaye müəssisələrinin ehtiyat hissələri ilə təminatı kəskin şəkildə pisləşdi. Müharibənin təsiri xüsusən kiçik zavodlar üçün çox ağır oldu. Kiçik və orta güclü pambıqtəmizləmə zavodlarının əksər hissəsi maliyyə vəsaiti və xammal çatışmaması üzündən müharibənin sonunda fəaliyyətini dayandırmağa və ya böyük səhmdar kompaniyalarının, şirkətlərin himayəsinə keçməyə məcbur olmuşdu. Müharibənin pambıqtəmizləmə sənayesinə mənfi təsiri inhisarların və çar hakimiyyətinin mahlıcın qiymətini tənzimləmək sahəsindəki siyasətində də özünü göstərirdi.

Müharibə ərəfəsində və dövründə ipək emalı, yəni barama qurudulması, ipəksarıma və ipəkburma müəssisələri başlıca olaraq Şəki-Zaqatala, Qarabağ və Naxçıvan regionlarında cəmləşmişdi. Müharibənin ilk illərində ipək emalı sənayesində istehsalın artmasının əsas səbəblərindən biri Mərkəzi Rusiya ipək parça fabriklərinin xaricdən xammal alınmasında üzləşdiyi çətinliklərlə bağlı idi. Bu dövrdə Şimali Azərbaycanın ipəksarıma müəssisələrində istehsal olunan ipəyin əksər hissəsi poçtla Mərkəzi Rusiya fabriklərinə göndərilirdi[2]. Lakin müharibənin sonuna doğru ipək sənayesi müəssisələrinin xammalla, mineral yanacaqla təchizinin pisləşməsi, işçi qüvvəsinin xeyli hissəsinin hərbi səfərbərliyə alınması ilə əlaqədar istehsal kəskin şəkildə azalmışdı.

Birinci dünya müharibəsində milyonlarla insanın döyüş cəbhələrinə çağrılması, onların isti paltar və uzunboğaz çəkmə ilə təchizi problemlərini həll etmək zərurəti yaratdı. Cəbhənin ehtiyacını ödəmək üçün yerlərdə gön-dəri müəssisələrində emal olunmuş dəri məmulatının sərbəst satışı məhdudlaşdırıldı. Gəncə qubernatorunun 1916-cı ilin martında verdiyi göstərişə görə, gön-dəri müəssisələri sahibkarları qara mal və at gönlərini emal etdikdən sonra açıq satışa çıxara bilməzdilər[3]. Gön-dəri məhsuluna tələbin kəskin surətdə artması onun emalı üzrə sənaye sahəsində böyük inkişafa səbəb oldu. Gəncə quberniyasında 1915-ci ildə 100-ə qədər gön-dəri müəssisəsi istehsalı artırmışdı. Həm də bu müəssisələrin çoxu 70-80 işçisi olan zavodlara çevrilmişdi. Bəhs olunan dövrdə Bakı quberniyasında, Zaqatala dairəsində və Naxçıvan qəzasında da gön-dəri müəssisələri istehsalı əsaslı şəkildə yüksəlmişdi.

**“Yeyinti sənayesi sahələri”** adlanan dördüncü bölmədə qeyd edilmişdir ki, Şimali Azərbaycanda Birinci dünya müharibəsi ərəfəsi və

[1] Известия Общества для содействия улучшению и развитию мануфактурной промышленности. 1916 г., №7, с.214
[2] Известия Кавказской Шелководственной Станции, 1917 г., вып. 1, с.22
[3] Елисаветпольские губернские ведомости, 29 марта 1916 г., № 26



dövründə yeyinti sənayesində əsas yeri balıqçılıq, şərab, araq, konyak və spirt istehsalı, tütün emalı sahələri tuturdu. Bundan əlavə çiyid yağı və biyankökü emalı sahələri də müəyyən əhəmiyyətə malik idi.

Müharibənin başlanması balıq sənayesində ciddi çətinliklər yaratdı. Bu, xarici bazarların itirilməsində, nəqliyyat əlaqələrinin pisləşməsində, balıq sənayesi müəssisələrinin və vətəgələrin zəruri vasitələrlə təchizatının pozulmasında, hərbi çağırışla bağlı işçi qüvvəsinin bir hissəsinin itirilməsində özünü aydın şəkildə göstərirdi. Belə ki, Qafqaz cəbhəsində hərbi əməliyyatlar başlandıqdan sonra balıq sənayesi məhsullarının xarici bazara ixracı böyük ölçüdə ixtisar olundu, Mərkəzi Rusiyaya göndərilməsi isə dəmir yolu ilə mülki yüklər daşınmasındakı çətinliklərə görə kəskin surətdə aşağı düşdü.

Müharibə eyni zamanda döyüşən ordunun ərzaqla təchizatı ilə bağlı balıq sənayesi qarşısında geniş imkanlar açdı. Çünki balıq və balıq məhsullarına hərbi sifarişlər kəskin surətdə artdı. Ordunun balıq və balıq məhsulları ilə yetərincə təmin olunması üçün hakimiyyət orqanları balıq sənayeçilərinə güzəştlər etməyə, əvvəllər qoyulmuş bir sıra məhdudiyyətləri ləğv etməyə başladılar. Balıq vətəgələri və balıq sənayesi üzrə səhmdar cəmiyyətləri müharibə başlandıqdan sonra cəbhə üçün məhsul istehsal edən müəssisələr sırasına daxil edildi, balıq sənayesində çalışanlara hərbi çağırışdan möhlət verilməsinə başlandı.

Müharibənin başlanması Şimali Azərbaycanda şərab, araq, spirt və konyak istehsalına ciddi surətdə mənfi təsir etdi. Müharibə illərində şərab və digər spirtli içkilərin istehsalının azalmasının əsas səbəblərindən biri çar II Nikolayın 24 aprel 1914-cü il tarixli fərmanına əsasən imperiya miqyasında spirtli içkilərin istehsalı və satışının qəti şəkildə məhdudlaşdırılması, bəzi içkilərin isə qadağan edilməsi idi. Müharibənin başlanmasından sonra alman sahibkarlara məxsus əmlakın, o cümlədən üzüm bağlarının, şərab emalı, spirttəmizləmə və konyak spirti istehsalı zavodlarının müsadirə edilməsi və ya məcburi şəkildə satılması haqqında çar hökumətinin qərarının icrası[1] da şərab, spirt və konyak istehsalına mənfi təsir göstərdi.

Hərbi əməliyyatlar başlandıqdan sonra tütün və tənbəki məhsullarına tələbat kəskin şəkildə yüksəldiyi üçün ölkəmizdə fəaliyyətini davam etdirən bütün tütün və tənbəki fabrikləri istehsalı daha da artırdılar. Təkcə Şamaxı tənbəki fabriklərində istehsal həcmi 1913-cü ilə nisbətən 1916-cı ildə 2 dəfədən çox artmışdı. Belə yüksək artımın bir səbəbi də 1914-cü ilin noyabr ayında Şamaxıda yerli sahibkar Qulam Abdullayevin yeni tənbəki fabrikini işə salması idi. Nəticədə müharibə illərində tənbəki istehsalında birincilik

[1] AR DTA, f.45, siy. 1, iş 167, vər. 3-5, 10, 82-83, 134; iş 168, vər. 6-8, 47, 73, 135

Şəkidən Şamaxıya keçmiş oldu.

Ləki dəmir yolu stansiyasında inşa edilmiş çiyid yağı zavodu da müharibə dövründə istehsalı sürətlə genişləndirməkdə idi. Çünki bu zavodun istehsal etdiyi yağın və jmıxın hamısını hökumət orqanları cəbhənin ehtiyacları üçün satın alırdı.

Göründüyü kimi, müharibə dövründə cəbhənin ehtiyacı üçün işləyən yeyinti sənayesi sahələrində istehsal böyük həcmdə davam etdiyi halda, spitrli içkilər istehsalı, həmçinin məhsulu imperiyadan xaricə ixrac olunan müəssisələrdə istehsal kəskin şəkildə ixtisar edilmişdi.

Dissertasiyanın ikinci fəsli **"Müharibə dövründə kənd təsərrüfatının vəziyyəti"** adlanır. Bu fəsildə müharibə başlandıqdan sonra ***taxılçılıq, maldarlıq,*** texniki bitkilər becərilməsi, xüsusən də ***pambıqçılıqda*** baş verən keyfiyyət dəyişiklikləri, ***üzümçülük*** və bağçılıq, ***ipəkçilik*** və ***tütünçülük*** sahələrinə müharibənin təsiri məsələləri tədqiq edilmişdir.

Konkret faktlarla qeyd edilmişdir ki, müharibə ərəfəsində Şimali Azərbaycanda kənd təsərrüfatı bütövlükdə sürətlə inkişaf edir, ticarət əkinçiliyi, satlıq məhsul istehsalı genişlənirdi. Bu, texniki bitkilər becərilməsində xüsusilə aydın görünürdü. Lakin müharibə başlandıqdan sonra dəmir yolu ilə Cənubi Qafqaza taxıl daşınmasının kəskin azalması baş verdi ki, bu da taxıl məhsullarının qıtlaşmasına və qiymətinin sürətlə bahalaşmasına səbəb oldu. Bu hissədə müharibənin sonuna doğru ərzaq məhsullarının qiymətinin kəskin surətdə bahalaşmasının kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafında yaratdığı dəyişikliklər üzrə statistik göstəricilərin araşdırılmasına xüsusi diqqət yetirilmişdir.

Müharibə dövründə pambıq istehsalçılarının bir qismi taxıl əkininə keçdilər. XX əsrin əvvəllərində pambıqçılığın sürətlə inkişaf etdiyi Ərəş qəzasında müharibə illərində taxıl əkinləri daha çox artmışdı. Belə ki, bu bölgədə 1914-cü ildə 14757 desyatin sahədə, 1915-ci ildə 14739 desyatin sahədə, 1916-cı ildə 66043 desyatin sahədə taxıl əkilmişdi[1]. Lakin müharibənin son dövründə taxıl məhsulları istehsalı azalmaqda idi. Taxıl məhsulları istehsalı bütövlükdə bütün Şimali Azərbaycan üzrə 1914-cü ildə 50,5 milyon puddan 1917-ci ildə 26 milyon puda düşmüşdü[2].

Birinci dünya müharibəsi ərəfəsində və dövründə Şimali Azərbaycanın maldarlıq sahələri içərisində başlıca yeri qoyunçuluq tuturdu. Müharibə başlanan vaxt Şimali Azərbaycanda bütövlükdə 4,2 milyon başa qədər mal

---

[1] AR DTA, f.62, siy.1, iş 95, vər.56; Предварительные итоги Всероссийской сельскохозяйственной переписи 1916 года. Пг., 1917, вып. 6, с.76-91

[2] Azərbaycan tarixi, c.5, s.181



saxlanırdı ki, onun da 2,5 milyon başını qoyunlar təşkil edirdi[1]. Bu isə o demək idi ki, həmin dövrdə əhalinin bəslədiyi iribuynuzlu və xırdabuynuzlu malların yarıdan çoxunu qoyunlar təşkil edirdi. Müharibə illərində qoyun və keçilərin sayında ciddi azalma baş vermədi. Əsas azalma inək, camış və atların sayında idi. Şimali Azərbaycan üzrə qaramalın sayı 1912-ci ilə nisbətən 1916-cı ildə 250 min başa qədər azalmışdı[2]. 1912-ci ildə Şimali Azərbaycanda 281 min baş atdan istifadə edilirdisə, 1915-ci ilin sonunda bu rəqəm 143 minə bərabər olmuşdu[3]. Bunun da başlıca səbəblərindən biri müharibə illərində qoşqu heyvanlarının cəbhə və cəbhəarxası işlər üçün müsadirə edilməsi ilə əlaqədar idi. İş heyvanlarının cəbhənin ehtiyacları üçün müsadirəsi atların sayının daha kəskin şəkildə azalmasına səbəb olmuşdu.

Birinci dünya müharibəsinin ilk iki ili ərzində pambıq əkini sahələri o qədər də azalmamışdı. 1914-cü ildə Şimali Azərbaycanda 104,3 min desyatin pambıq sahəsi vardısa, bu, 1915-ci ildə 86 min desyatinə enmişdi. Başqa sözlə, müharibənin əvvəlində pambıq əkini sahələri nisbətən az – cəmi 18 faiz ixtisar edilmişdi. Müharibənin sonuna doğru iqtisadiyyatın bütün sahələrini bürüyən böhran pambıqçılıq təsərrüfatına da ağır təsir göstərmişdi. 1914-cü ildən 1917-ci ilə kimi Şimali Azərbaycan üzrə pambıq əkini sahələri və pambıq toplanması 3 dəfəyə qədər azalmışdı. Həm də azalma 1916-1917-ci illərdə xüsusilə kəskin şəkil almışdı. Dəmir yolu nəqliyyatının hərbi təyinatlı yük daşımalarına cəlb edilməsi ilə bağlı, pambıq lifinin emal müəssisələrinə göndərilməsinin çətinləşməsi də pambıqçılıq təsərrüfatına mənfi təsir göstərirdi. Belə ki, Cənubi Qafqaz dəmir yolunun Gəncə quberniyasındakı stansiyalarından 1913-cü ildə 1 310 min ton mahlıc göndərildiyi halda, 1916-cı ildə bu göstərici 317 min puda düşmüş və ya 4 dəfədən çox azalmışdı (106, 1916, 123). Bakı quberniyasındakı dəmir yolu stansiyalarından isə 1913-cü ildə 879 min pud, 1916-cı ildə isə cəmi 156 min pud mahlıc yola salınmışdı (106, 1916, 124) və ya kənara pambıq lifi göndərilməsi 5 dəfədən çox ixtisar olunmuşdu. Birinci dünya müharibəsinin əvvəlində – 1914-1915-ci illərdəki hərbi əməliyyatlar gedişində, Rusiyanın Qərb cəbhəsində məğlubiyyəti ilə əlaqədar, imperiyanın toxuculuq sənayesi müəssisələrinin mühüm bir hissəsinin yerləşdiyi Polşa çarlığı alman qoşunları tərəfindən işğal olundu. Bu da Şimali Azərbaycan mahlıcının əsas

---

[1] Vəliyev (Baharlı) M.H. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı, 1993, s.105

[2] AR DTA, f.62 siy.1, iş 95, vər.31

[3] Кавказский календарь на 1914 г., отд. стат., с.174-177; на 1917 г., отд. стат., с.266-269

alıcılarından olan Lodz və Poznan pambıq-parça fabrikləri ilə əlaqələrin kəsilməsi ilə nəticələndi.

1913-cü ildə bütövlükdə Şimali Azərbaycan üzrə, Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Zaqatala dairəsi və Dərbənd bölgəsi də daxil olmaqla, 30,8 min desyatin sahədə üzümlük mövcud idi və həmin il 6,5 milyon pud üzüm məhsulu toplanmışdı. Müharibənin başlandıqdan sonrakı ilk dövrdə üzüm bağlarının sahəsində azalma müşahidə olunmasa da, üzüm məhsulunun toplanması kəskin surətdə aşağı düşdü. Üzüm məhsulu toplanması 1915-ci ildə 1913-cü ilə nisbətən 6,7 dəfədən çox aşağı düşmüşdü. Sonrakı dövrdə isə yerlərdə taxıla ehtiyacın artması üzüm bağlarının bir hissəsinin məhv edilməsinə gətirib çıxardı. Bakı-Dağıstan Üzümçülük və Şərabçılıq Komitəsinin 1917-ci ilin yazına olan məlumatına görə, Bakı quberniyasında həmin vaxt 14870 təsərrüfata məxsus 10650 desyatin üzüm bağı mövcud idi[1]. Bu da o demək idi ki, Bakı quberniyasında 1914-cü ilə nisbətən 1917-ci ildə üzüm bağlarının sahəsi 561 desyatin ixtisar edilmişdi.

Azərbaycan sovetləşdirildikdən sonra aparılmış araşdırmalara görə, üzüm bağlarının sahəsi 1914-cü ilə nisbətən 3 min desyatinə qədər azalmışdı. Müharibə elan edilməsi ilə bağlı səfərbərlik keçirilməsi, spirtin sərbəst satılmasının dayandırılması, 1914-cü il iyulun 27-də spirt üzərinə qoyulan aksiz vergisinin 2 dəfə artırılması[2] kimi tədbirlər də üzümçülük təsərrüfatına mənfi təsir göstərmişdi.

Birinci dünya müharibəsi illərində yeni tut bağları salınması dayandırılmış və taxıl məhsullarına ehtiyacın kəskin surətdə artdığı bir şəraitdə, tut bağlarının bir hissəsi, xüsusən yeni salınmış bağlar və şitilliklər əhəmiyyətli miqyasda taxıl əkinləri üçün ləğv edilmişdi. O dövrün statistik göstəricilərində bütövlükdə Şimali Azərbaycanda tut ağacı bağlarının konkret olaraq nə qədər ixtisar edildiyi göstərilməsə də, müharibə dövründə Göyçay və Ağdaşda tut bağlarının 50 faiz, Zaqatala bölgəsində isə 60 faiz azaldığı[3] haqqında məlumatlar mövcuddur. Bu da barama istehsalının kəskin şəkildə azalmasında özünü göstərdi. Müharibə ərəfəsində ölkəmizdə ildə orta hesabla 200 min puda qədər barama istehsal edildiyi halda, müharibənin sonunda bu göstərici 2 dəfə aşağı düşmüşdü.

1900-cü ilə nisbətən 1914-cü ildə bütün Şimali Azərbaycan üzrə tütün becərilən sahələr 2,5 dəfə, tütün məhsulu toplanması isə 2,4 dəfəyə qədər artmışdı. Ölkəmizdə 1914-cü illə müqayisədə 1915-ci ildə tütün əkilməsi və

[1] AR DTA, f.287, siy.1, iş 24, vər.86
[2] Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1914 г., с.220
[3] Весь Азербайджан. Адресная и справочная книга на 1924 г. Баку, 1924, с.36



toplanmasında ciddi geriləmə baş verməmişdi. Bakı quberniyasında isə hətta tütün əkini və tütün məhsulu toplanması 1,3 dəfəyədək artmışdı. Müharibənin sonrakı dövründə bütün imperiya miqyasında iqtisadi böhranın dərinləşməsi, taxıl məhsullarına tələbatın kəskinliklə artması ilə əlaqədar pambıq və digər bu kimi bitkilərin əkinlərinin ixtisar olunması, tütünçülük sahəsinə də sirayət etmişdi. Taxıl məhsullarının qiymətinin müharibə illərində sürətlə bahalaşması tütün istehsalına marağın azalmasına gətirib çıxartdı. Belə ki, müharibə ərəfəsində tütün ilə buğdanın satış qiymətlərindəki fərq 15:1 nisbətində tütünün xeyrinə olduğu halda müharibə dövründə bu fərq əsaslı surətdə azalaraq 2:1 nisbətinə düşmüşdü[1].

Üçüncü fəsil **"Müharibənin xırda istehsal, nəqliyyat və ticarət sahələrində yaratdığı dəyişikliklər"** adlanır. Bu fəsildə müharibə dövründə kustar sənətkarlıq növlərində baş verən yeniliklər təhlil olunmuş, müharibənin son mərhələsində nəqliyyat əlaqələrinin pisləşməsi, xüsusən də dəmir yolu ilə yük daşımalarında böhranlı vəziyyət araşdırılmışdır. Fəslin sonuncu bölməsində müharibənin daxili və xarici ticarətə təsiri məsələləri tədqiq edilmişdir. Hərbi əməliyyatların başlanması ilə əlaqədar bütünlüklə Rusiya imperiyası miqyasında iri sənaye müəssisələrinin – fabrik və zavodların hərbi məhsul istehsalına keçirilməsi və cəbhə üçün sifarişləri yerinə yetirməyə cəlb edilməsi geniş miqyas aldı. Belə bir şəraitdə kiçik sənətkarlıq müəssisələrinin, emalatxanaların, ayrı-ayrı fərdi sənətkarların istehsal etdikləri məhsullara tələb kəskin şəkildə artdı. Bu da uzun əsrlər boyu davamlı inkişaf edib təkmilləşmiş sənətkarlıq sahələrində yerli xammala əsaslanmaqla əhalinin gündəlik tələbatını ödəyən müxtəlif məhsullar hazırlanması ənənəsinin canlanmasına səbəb oldu. Digər tərəfdən isə, cəbhənin artan ehtiyaclarının ödənilməsi zərurəti də bir sıra sənətkarlıq sahələrinin məhsul istehsalını kəskin surətdə genişləndirməsini tələb edirdi. Məsələn, müharibə dövründə hərbçilər üçün ayaqqabı istehsalı, atlı qoşun üçün yəhər-yüyən düzəldilməsi sifarişləri bu sənətkarlıq sahələrinin, bütövlükdə gön-dəri emalı müəssisələrinin istehsalı genişləndirilməsinə gətirib çıxardı.

Bir sıra sənətkarlar yerli ehtiyacları ödəməklə yanaşı, hərbi sifarişləri də yerinə yetirirdilər. Müharibə başlandıqdan sonra Qafqaz cəbhəsi zabitlərinin yapıncıya, qılınc və xəncərə tələbləri çoxalmışdı. Soyuq silah istehsalını genişləndirməyə dəmir, polad çatışmaması mane olsa da, yapıncı istehsalı sürətlə artmağa başlamışdı. Bu dövrdə yapıncı daha çox Zaqatala dairəsində (Sarıbağ və Muxax kəndlərində) və Qazax qəzasında hazırlanırdı. Şimali Azərbaycanın bir çox şəhərlərində Qafqaz cəbhəsi üçün yəhər, xəncər, alt paltarı və şinel hazırlanması üzrə emalatxanalar təşkil olundu.

[1] Басилая Ш.И. Закавказье в годы первой мировой войны. Сухуми, 1968, с.233

Müharibə başlandıqdan dərhal sonra Gəncə və Bakı quberniyalarında Müsəlman süvari alayı təşkilinə başlanması hərbi qulluğa yazılan gənclərin at, yəhər, çərkəzi yapıncı və soyuq silahla təchizi zərurətini yaratdı. Gəncə qubernatorunun 29 avqust 1914-cü il tarixli göstərişi ilə Cavanşir qəzasında tünd boz rəngli çərkəzi yapıncı hazırlanmasına başlandı[1].

Müharibənin Şimali Azərbaycan iqtisadiyyatının bütün sahələrinə digər önəmli təsiri nəqliyyat problemi ilə bağlı olmuşdur. Müharibənin ilk illərində dəmir yolları ilə yükdaşımaların ümumi həcmi qismən artsa da, bu artım bilavasitə hərbi yüklərin hesabına baş verirdi. Kommersiya xarakterli yüklər daşınması isə əsaslı surətdə ixtisar olunurdu. Bunun nəticəsi ilk növbədə əhalinin ərzaqla təminatında ciddi çətinliklər yaranmasında özünü göstərirdi. Bütövlükdə, müharibənin birinci ilində Şimali Qafqazda normal taxıl məhsulu toplansa da, onun Bakıya, Gəncəyə və digər bölgələrə vaxtında və kifayət qədər çatdırılması mümkün olmamışdı. Nəqliyyat böhranı həmçinin sənaye müəssisələrinin əksəriyyətinin xammalla, yanacaqla normal təchizatında problemlər yaratmışdı. Şəhərlə kənd arasında, xalq təsərrüfatının müxtəlif sahələri arasında, ayrı-ayrı bölgələr arasında əlaqələrin pozulmasına gətirib çıxarmışdı.

Dissertasiya işinin nəticə hissəsində mövzu üzrə əsas yekunlar qeyd olunmuş, müharibənin doğurduğu çətinliklərin Rusiya imperiyasının dağılmasına və müstəqil Azərbaycan dövləti yaradılmasına gətirib çıxardığı göstərilmişdir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. Birinci dünya müharibəsinin Azərbaycanın əkinçilik təsərrüfatına təsirinə dair. // Bakı, "Tarix və onun problemləri", №2, 2004, s.93-96
2. Birinci dünya müharibəsinin Azərbaycanda pambıqçılığa təsiri. // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, №3, 2004, s.287-291
3. Azərbaycan sənayesinə Birinci dünya müharibəsinin təsiri. // Bakı, "Tarix və onun problemləri", №3, 2004, s.91-96
4. Şimali Azərbaycanda pambıqtəmizləmə sənayesinə Birinci dünya müharibəsinin təsiri. // Bakı, "Tarix və onun problemləri", №4,2004, s.68-76
5. Birinci dünya müharibəsi ərəfəsi və dövründə Şimali Azərbaycanda ipəkçiliyin vəziyyəti. // Bakı, "Tarix və onun problemləri", №2, 2005, s.68-76


[1] AR DTA, f.62, siy.1, iş 81, vər.98




6. Birinci dünya müharibəsi illərində Şimali Azərbaycanda tütünçülük. //Bakı, "Tarix və onun problemləri", №3, 2005, s.52-57
7. Şimali Azərbaycanda Birinci dünya müharibəsi dövründə sənətkarlığın vəziyyəti. // Bakı, "Azərbaycan arxeologiyası və etnoqrafiyası", №2, 2006, s.215-222
8. Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycanda üzümçülük. //Bakı, "Tarix və onun problemləri", №1, 2006, s.61-68
9. Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycanda nəqliyyat. //Bakı, "Bakı Universitetinin xəbərləri", Humanitar elmlər seriyası, №1, 2007, s.130-136
10. Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycanda maldarlıq təsərrüfatı. // Bakı, "Azərbaycan arxeologiyası və etnoqrafiyası", №1, 2008, s.170-176
11. Birinci dünya müharibəsinin Rusiya iqtisadiyyatında yaratdığı dəyişikliklər. //Bakı, "Bakı Universitetinin xəbərləri", Humanitar elmlər seriyası, №3, 2008, s.195-202
12. Влияние Первой мировой войны на пищевую промышленность в Северном Азербайджане. // Москва, «Вопросы гуманитарных наук», № 4, 2009, с.10-16
13. Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycanda ipək sənayesinin vəziyyəti. // Azərbaycan Milli Elmlər Akademiyasının Məruzələri. C. LXV, №3, 2009, s.172-177
14. Влияние Первой мировой войны на состояние торговли в Северном Азербайджане. // Тбилиси, «Кавказ и Мир», Международный научный журнал, № 8, 2010, с.167-171
15. Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycan-Dağıstan iqtisadi əlaqələri məsələsinə dair. // "Azərbaycan-Dağıstan: qardaşlıq münasibətləri tarixi, müasirlik, perspektivlər"mövzusunda Seyid Qurbanovun xatirəsinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri. Xüsusi buraxılış, №33, 2010, s. 347-353
16. Birinci dünya müharibəsi dövründə Şimali Azərbaycanın İranla ticarəti. // Bakı,Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, №3, 2011, s. 144-151
17. Birinci dünya müharibəsinin Qafqazın türk-müsəlman əhalisinin sosial-iqtisadi vəziyyətinə təsirinə dair. // "Türk dünyası: dünəni və bu günü" mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, "Viktori" nəşr., 2011, s.331-335

17a.Birinci dünya müharibəsinin Qafqazın türk-müsəlman əhalisinin sosial-iqtisadi vəziyyətinə dair. // "Türk dünyası: dünəni və bu günü"

mövzusunda beynəlxalq elmi konfransın materialları. I c. 23-24 may 2011-ci il, Bakı, “Viktori” nəşr.,2012, s. 262-268



**R.B.ASADOVA**

**THE INFLUENCE OF FIRST WORLD WAR TO THE ECONOMY IN THE NORTHERN AZERBAIJAN (except of the Baki industrial region)**


**SUMMARY**

In the introduction is being based the actuality of the topic, being determined the chronological frames, the aim and task of the research, dealt with the state of the scientific working out of the problem, were analyzed main sources, was formed the scientific novelty and the practical value of the thesis

In the first[t] chapter were analyzed the questions of the changing in the industry of the northern Azerbaijan under the influence of the First World War. There was investigated the influence of the war to the state of such kinds of fields like non-ferrous, fishery, wine-making, silk-making, cotton-cleaning, liquorice and the creamery. It should be noted that under the influence of the war a great deal of enterprises decreased their production which was connected with calling up the workers for military service, irregularities in transport violations of commercial ties with foreign countries etc.

The second chapter was dedicated to the changes in some fields of the agriculture, happened under the influence of war. On the eve and the years of war main places in Northern Azerbaijan were such kinds of fields like grain crops, cattle breeding, cotton-growing, and the vine-growing as well. Some certain significance had the fields of silk-making and the tobacco-growing production. Beginning of the war could createe some serious problems in all the fields of agriculture. It could evidently be seen in losses of foreign markets, worsening of transport communications, irregularities in supplying of agriculture with necessary technical means, partial losses of labour force and in connection of its mobilization to home front works.

In the third chapter is being investigated the influence of the First World War to the handicraft production, commerce and transport and serious changes met in all the fields of economical life. In the years of war handicraft production continued to play considerable role in every day life of the people. Beginning period of the war could influence for decreasing of the economical activity in the whole, and the commerce as well. In a separate paragraphe was explained the influence of the transport means in the years of war to the socio-economical life.

In the end there made a conclusion and given necessary generalizations on the research.

Р.Б.АСАДОВА

## ВЛИЯНИЕ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ НА ЭКОНОМИКУ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ
**(за исключением Бакинского промышленного района)**


### РЕЗЮМЕ

Во введении обоснованы актуальность темы, определены хронологические рамки, цели и задачи исследования, освещено состояние научной разработки проблемы, проанализированы основные источники, сформулированы научная новизна и практическая значимость диссертации.

В первой главе рассмотрены вопросы изменения в промышленности Северного Азербайджана под влиянием Первой мировой войны. Исследовано влияние войны на состояние таких отраслей, как цветная металлургия, рыбная, винодельческая, шелковая, хлопкоочистительная, солодковая и маслобойная. Отмечено, что под влиянием войны большинство предприятий сокращало производство, что было связано с призывом рабочих в армию, перебоями на транспорте, нарушением торговых связей с заграницей и т.п.

Вторая глава посвящена изменениям в отдельных отраслях сельского хозяйства, произошедшим под влиянием войны. Накануне и в годы войны основное место в Северном Азербайджане занимали такие отрасли, как зерновое хозяйство, скотоводство, хлопководство, виноградарство. Определенное значение имели шелководство и производство табака. Начало войны создало серьезные проблемы во всех отраслях сельского хозяйства. Это наглядно проявилось в потере зарубежных рынков, ухудшении транспортных связей, в перебоях в снабжении сельского хозяйства необходимыми техническими средствами, потере части рабочей силы в связи с ее мобилизацией на тыловые работы.

В третьей главе исследуется влияние Первой мировой войны на ремесленное призводство, торговлю и транспорт, и серьезные изменения, произошедшие во всех областях экономической жизни. В военные годы ремесленное производство продолжало играть значительную роль в быту и хозяйственной жизни народа. Начало войны повлияло на снижение экономической активности в целом, в том числе и в торговле. В отдельном параграфе освещено влияние транспортных средств в годы войны на социально-экономическую жизнь.

В заключении сделаны основные выводы и даны обобщения по исследованию.




**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**АСАДОВА РЕНА БЕГЛЯР ГЫЗЫ**

# ВЛИЯНИЕ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ НА ЭКОНОМИКУ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ
**(за исключением Бакинского промышленного района)**

***Специальность: 5503.02. – История Отечества***

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ - 2013**